# ACI XURMA



## (Hekayə 44 günlük müharibədə yaşanmış real bir ailə dramı əsasında yazılıb)

Fəridə məktəbdə təmizlik işlərini görüb başa çatdırmışdı. Bir az əyləşib yorğunluğunu çıxarandan sonra evə getməyə hazırlaşırdı. Xadimə işlədiyi məktəbin ikinci mərtəbəsinin pəncərəsinin qabağında oturub həyətə baxa-baxa xəyala daldı. Yenə həmişəki kimi, özü də istəmədən ürəyində ən çox sevdiyi el bayatısı təkrarlanmağa başladı:

*Dərya səndən kim keçdi,*
*Kim qərq oldu, kim keçdi*
*Yadıma kimlər düşdü,*
*Xəyalımdan kim keçdi.*

gFərıdənin yadına həmişə bir nəfər - yolunda həyatını qurban verməyə hazır olduğu, dünya qədər sevdiyi, amma çox erkən yaşlarda bir faciə nəticəsində itirdiyi - bu dünya dəryasında qərq olan həyat yoldaşı Fərid düşürdü. Əslində, o, heç vaxt Fəridənin yadından bir an da olsun çıxmamışdı. Sadəcə başı işə-gücə qarışanda bir anlığa onun haqqında düşünməyə vaxt tapmırdı.

O, həyat yoldaşı Fəridlə məktəb illərindən tanış olmuşdu. İlk gündən bir-birinə bağlanan bu cütlüyün sevgisi günbəgün, saatbasaat güclənərək, sonda iki taleyin birləşdirilməsi ilə başa çatmışdı. Fəridə Fəridi, Fərid də Fərideni dünyalar qədər sevirdi. Hətta məktəbli dostları onların münasibətini zarafatla "2F=1A" düsturu ilə ifadə edirdilər. Bu da hər iki gəncin xoşuna gəlirdi. Fəridə Fəridin simasında həm də bir arxa dayaq, güvən yaradan, gələcəyə ümidlə baxmağa sövq edən həqiqi bir həyat yoldaşı tapmışdı. Fəridə öz varlığını Fəridsiz təsəvvür edə bilmirdi. O, Fəriddə, Fərid də onda yaşayırdı, bir-biri ilə nəfəs alırdılar.

Fərid hündürboy, yaraşıqlı, gülərüzlü, rəhmdil biri idi. İxtisasca həkim idi. Fəridə ali təhsil almaq istəsə də, imtahan qorxusu sindromundan xilas ola bilmədiyindən, heç vaxt imtahanlarda tələb olunan balı yığa bilməmişdi. Fəridənin ali təhsil almağa cəhd etməsi daha çox Fəridə olan sevgisi, ona layiq olmaq istəyilə bağlı idi. O, elə düşünürdü ki, ali təhsil almasa Fəridə layiq olmayacaq və uşaqlıq illərindən ürəyində bəslədiyi Fəridlə ailə həyatı qurmaq arzusuna çatmayacaqg Amma Fərid Fərideni o qədər sevirdi ki, təhsil alıb-almaması onun üçün əhəmiyyət kəsb etmirdi. Məhz buna görə universitetdə təhsil ala-ala Fəridəyə evlənmək təklifi etmiş və müsbət cavab aldıqdan sonra xoşbəxt bir ailə qurmuşdular.

Fərid ailəni iqtisadi cəhətdən tam təmin edirdi. Heç bir problemləri yox idi. Can deyib, can eşidirdilər. Fəridə heç bir yerdə işləmirdi. Buna ehtiyac da duymurdular. Fərid zarafatla Fərideni "daxili işlər naziri" adlandırırdı. Fərid işdə olanda bir gündə dəfələrlə evə zəng edib, Fəridənin kefini soruşur, bir an da olsun onu darıxmağa qoymurdu. Üstündən on dəqiqə keçməmiş Fəridə də Fəridə zəng edib, onunla hal-əhval tuturdu. İşlərin necə getməsi ilə maraqlanırdı. Kənar adamların bəziləri bu iki gəncin məhəbbətinə təccüb, bəziləri qibtə edirdi. Fərid çox ləyaqətli, ailəcanlı, ədəbli, vətənpərvər biri idi. O, öz peşəsinə bir peşə kimi yox, ~~sosial~~ vəzifə kimi baxırdı. Azərbaycan tarixi və mədəniyyətinin vurğunu idi, ürəyi xalqına sevgi, dövlətinə sədaqətlə dolu idi. Fəridə bəzən zarafatla Fəridin bu sevgisinə görə onu xalqına və dövlətinə qısqandığını deyirdi. Fərid də zarafatla, "zatən sən mənim xalqımın bir üzvü, dövlətimin bir vətəndaşı olduğuna görə, mənim vətənimə və millətimə eşqim belə böyükdür",- deyirdig

Fərid ailəni iqtisadi cəhətdən tam təmin edirdi. Heç bir problemləri yox idi. Can deyib, can eşidirdilər. Fəridə heç bir yerdə işləmirdi. Buna ehtiyac da duymurdular. Fərid zarafatla Fəridəni "daxili işlər naziri" adlandırırdı. Fərid işdə olanda bir gündə dəfələrlə evə zəng edib, Fəridənin kefini soruşur, bir an da olsun onu darıxmağa qoymurdu. Üstündən on dəqiqə keçməmiş Fəridə də Fəridə zəng edib, onunla hal-əhval tuturdu...

Evliliklərinin ikinci ilində bir oğul övladları dünyaya gəldi. Bununla da sevincləri bir idisə, min oldu. Ad qoymaq məsələsində ər-arvad arasında fikir ayrılığı yarandı. Fərid oğluna İgid, Fəridə Ümid adını qoymaq istəyirdi. Axırda Fəridə Fəridə güzəştə getdi və birlikdə İgidi böyütməyə başladılar. Amma sən saydığını say, gör fələk nə sayır...

Bir gün Fərid həmişə evə gəldiyi vaxtda evə qayıtmadı. Fəridə əvvəl "yəqin bir işi var" deyə düşündü. Amma adətən Fərid xəstəxanada gecikəndə, mütləq Fəridəyə zəng edir, təxmini nə vaxta işini başa vurub gələcəyini bildirirdi. Bu gün isə Fəriddən bir zəng gəlmədi. Əvvəl, Fəridə özü Fəridə zəng etmək istədi, amma nədənsə qorxdu, ürəyi sıxılmağa başladı, ona elə gəldi ki, zəng edəsə nəsə pis bir xəbər eşidəcək. Telefon əlində donub qalmısdı, vaxt sürətlə axıb gedirdi. Nəhayət, telefon zəng çaldı. Fəridənin ürəyi yerinə gəldi, telefonu açdı və Fəridin səsini eşitmək ümidi ilə "Alo, Fərid" deyə cavab verdi. Fəridin bu vaxt ona zəng edəcəyini düşündüyündən, zəng gələn nömrəyə baxmamışdı. Ona görə "salam, Fərid, necəsən, haradasan?" deyə soruşdu. Telefonda Fəridin əvəzinə yad bir adam cavab verdi: "Siz Fəridin nəyisiz?" Fəridəni sanki ildırım vurdu. Donub qaldı. Dili tutuldu. Telefon açan şəxs bir daha eyni sualı verdi. Fəridə böyük çətinliklə özünü ələ alıb, "həyat yoldaşıdır" deyə bildi.

Zəng edən adam bir anlığa susdu. Sonra, "Sizdən başqa evdə kimsə var?" deyə soruşdu. Artıq Fəridə düşünə bilmirdi, cavabları mexaniki olaraq verirdi. Səsi əsə-əsə, "yoxdur, niyə soruşursunuz ki?", - deyə bildi. Telefonun o başındakı adam, deyəsən yanındakı adamlarla məsləhətləşirdi. Fəridə səsi eşidir, amma nə danışdıqlarını ayırd edə bilmirdi. Kiçik bir pauza yarandı. Sonra həmin adamın, "bəs yaxınlarınızdan kiminsə nömrəsini verə bilərsiz" sözünə Fəridə heç nə başa düşə bilmirdi. "Bu adan nə isteyir, niyə qohumlardan kiminsə nömrəsini öyrənmək istəyir, Fərid haradadir" sualları beynində ildırım sürəti ilə sel kimi axır, cavab isə tapılmırdı. Fəridəni göz yaşları boğmağa başladı. Nəsə pis bir hadisə olduğunu başa düşdü. Amma nə? Fəridin dırnağına belə daş dəyəcəyi təqdirdə Fəridə həyatdan belə imtina etməyə hazır idi. Fəridə ağlamağa başladı: "Nə olub? Fərid haradadır? Nəyə görə Fəridin qohumlarını axtarırsınız?". Qarşı tərəf "heç nə olmayıb, siz bir nömrə verin", - dedi. Fəridə ancaq Fəridin qardaşının nömrəsini deyə bildi və sonra ani bir qaranlığa və səssizliyə düşdü.

Fəridə gözünü açanda evdə qohum-qardaş vay-şivən edirdi. "Fəridə nə olub?" soruşsa da, kimsə cavab vermədi. Fəridənin anası qızını qucaqlayıb ağlaya-ağlaya, "can bala, Fəridi itirdik" dedi. Elə o anda Fəridə bir insan kimi öldü, yalnız bir ana kimi yaşamağa başladı.

Günlər sürətlə ötüb keçirdi. Getdikcə yasa gələnlər seyrəlirdi. Çox vaxt Fəridə oğlu İgidlə təklikdə qalırdı. Düzdür, valideynləri dəfələrlə onları evlərinə aparmağa, bir yerdə yaşamağa cəhd etsələr də, Fəridə Fəridin xatirəsinin yaşadığı bu evi tərk etməsini ona qarşı bir xəyanət kimi qəbul edirdi.

Tezliklə ailənin dolanışıq problemi yaranmağa başladı. Fəridə yaxın qohumların heç bir yardımını qəbul etmirdi. Buna görə də altdan-altdan özünə iş axtarmağa başladı. Hara müraciət etdisə, ya pesə, ya diplom istədilər. Fəridənin məktəb illərindən dostluq etdiyi bir sinif yoldaşı onların evlərinin yaxınlığındakı məktəbdə müəllimə işləyirdi. Vaxt tapan kimi Fəridəgilə gəlir, onu tək qoymurdu. Fəridə öz problemlərindən danışıb, kimisə əziyyətə salmaq istəmirdi. Amma yaşamaq da lazım idi. Oğlunun məktəb xərcləri, evin sosial xərcləri - geyim, yemək, içmək - bir sözlə, pula çox ehtiyac yaranmışdı. Fəridin sağlığında Fəridə bu problemlərdən bixəbər idi. Fərid elə edirdi ki, Fəridə ehtiyacın nə olduğunu xəyalına belə gətirmirdi. Amma indi hər şey Fəridənin üzərinə düşmüşdü. Rəfiqəsi ilə söhbət əsnasında məktəbdə xadimə yerinin boş olduğunu öyrəndi. Ondan xahiş etdi ki, bu işə düzəlmək üçün ona kömək etsin. Fəridənin xadimə işləmək fikri rəfiqəsini təəccübləndirdi. Vaxtilə hamının yaşayışına qibtə etdiyi birinin xadimə işləmək istəməsi ağlasığan deyildi. Əvvəl rəfiqəsi bunun yaxşı fikir olmadığını dedi və Fəridəyə başqa iş tapmağa söz verdi. Ancaq Fəridə təkidlə həmin işi istəyirdi. İş yeri evə yaxın idi və oğlu da həmin məktəbdə oxuyurdu. İndi o, Fəridin qoxusunu İgiddən alırdı. İgid onu bu həyata bağlayan yeganə tel idi. Uzun çəkçevirdən sonra rəfiqəsi Fəridəni məktəbdə xadimə işinə düzəltməkdə vasitəçi oldu. O gündən Fəridə hər səhər uşaqlar məktəbə gəlməmiş İgidi də götürüb məktəbə gəlir, işlərini görüb qurtarandan sonra məktəbdə gözləyir, İgidin dərsi qurtaran kimi onu özü ilə evə aparırdı...

*(Ardı var)*

**AZAD**